# ADLI, ÜNVANLI MİSRALAR

## Oqtay Rzanın "Dördüncü kitab"ı



**Bugünlərdə mənə Mədətoğlu deyə müraciət edən dəyərli ağsaqqalımız ustad Oqtay Rza mənə özünün yeni kitabını bağışladı. Bəribaşdan deyim ki, həmişə xalqın içərsiində olan və olduğu hər yeri və məclisi şərəfləndirən, özünəməxsus ovqat yaradan Oqtay Rza mənim gözümdə xalqın içindəki adamdı, xalqın şairidi. Elə ona görə də bu xalq şairinin hər misrası, hər kitabı mənim üçün çox maraqlı və əzizdi. Ona görə də mən böyük məmnuniyyətlə qəbul etdiyim hədiyyəni elə ustadın öz yanındaca vərəqlədim. Vərəqləyə-vərəqləyə də şeirlərin ünvanına diqqət yetirdim. Bu ünvanlar mənə tanışdı bu ünvanlar mənə doğmadı. Ona görə də mən fürsət düşdükcə kitabdakı şeirləri artıq doğma ünvanların tərənnümü kimi oxumağa özümü köklədim. Təbii ki, bu işdə mənə kitabın ön sözü, daha doğrusu, onun müəllifi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Sabir Rüstəmoğlunun fikirləri də yardımçı oldu. Lap açığını desəm, Sabir müəllimin fikirləri ilə mənim fiikrlərim müəyyən nöqtələrdə üsğt-üstə düşdü. Gördüm ki, xalqın şairini mənim kimi duyanlar, dəyərləndirənlər kifayət qədərdi. Əslində bu, ustadın, yəni Oqtay Rzanın halal haqqıdır.**

Bəli, mən Oqtay Rzanın "Dördünxü kitabı"nı oxuyuram. Bir neçə fəsilə ayrılmış bu kitabda bütün misralar ünvanlıdı bütün misralar kimlərisə təqdim və tərənnüm edir. Bu kimlər bütövlükdə Azərbaycandı, bütövlükdə türk dünyasıdı. Elə kitabın ilk şeiri də "Azərbaycan" adlanır. Şair yazır:

***Ay ulduzlu bayrağım var,***
***Qədim, ulu torpağım var***
***Özüm boyda çırağım var***
***Əsirlərdən sorağım var***
***Əsirgəmir uğrumda can,***
***Min-min igid, Azərbaycan!***
***Yaşa, eşqi çiçək açan***
***Azad, vahid Azərbaycan!***

Təbii ki, bu, övladın, xüsusilə ürəyi poetik fikirlə, o fikirin mayası olan sonsuz sevgiylə yoğrulmuş bu misraların müəllifi doğma vətənə olan övlad məhəbbətini, övlad yanğısını elə bu cür də ifadə etməlidir. Oqtay Rza da həmin misralarda Azərbaycana olan sevgisini təkcə ifadə etmir, həm də onu göstərir, onu sərgiləyir. Üstəlik, bu sevginin torpağa, daşa, çiçəyə, suya, bir sözlə Azərbaycanın təbiətinə deyil, həm də onun insanlarına ərməğan edir. Bu insanların arasında ölkə rəhbəri də, birinci xanım da, elm, sənət adamları da, sıravi vətəndaşlar da görünür və sevilir.

Təbii ki, Oqtay Rza daha çox ziyalıları, hər gün təmasda olduğu insanların portret cizgilərini də öz misraları ilə yaradır, ifadə edir. Məsələn:

***Qəfil xəbər***
***Səhər-səhər***
***Qəddimizi əydi yaman***
***Qara geydi yenə hər yan***
***Bir cüt müdrik övladını***
***Cəngi ilə***
***Son mənzilə***
***Yola saldı Azərbaycan.***
***Göyə çıxıb ah-naləmiz***
***Əbədi tərk etdi ibizi***
***İki millət fədaisi -***
***Aydınımız, Dilarəmiz.***

Bu şeirdə faciəli şəkildə bizləri tərk etmiş iki Azərbaycan ziyalısının, Azərbaycan övladının nisgili oxucuya çatdırılır, oxucuya təqdim edilir. Ümumiyyətlə isə Oqtay Rzanın "Dördüncü kitab"ı həm də tarixi şəxsiyyətlərimizin, klassiklərimizin obrazlarını da şeirləşdirir, misralara çevririr və oxucu qarşısına çıxarır. Onların arasında Füzuli də var, Nizami də var, Cəfər Cabbarlı da, Abbas Mirzə də, onların obrazını yaradan xalq artisti Ələsgər Ələkbərli də.

Bu kitabı oxuduqca bugünümün söz adamları ilə də qarşılaşıram. Məsələn:

***Oxucular təzə çiçək, gül gətirib qucaq-qucaq***
***Gəlin ustad yubilyarı bağrımıza basıb qucaq!***
***Poeziya məşəlini Şuşada da yandıracaq***
***Misraları - yaşıl işıq, böyük şair Fikrət Qoca!***

Və yaxud:

***Bir ilə bərabər gün, həftə, ay var,***
***Müqəddəs pir, ocaq, qanlı saray var,***
***Dünyanı dolaşıb gəzən haray var,***
***Çingiz Abdullanın romanlarında.***

Və yaxud:

***Qəzet var - dili də bulaq tək duru,***
***Qəzet var - meyvəsiz budaq tək quru;***
***Yaxşı ki, yaxşı ki, nüfuzlu "Şərq"in***
***Akif Aşırlıdı baş redaktoru.***

Və yaxud:

***Gözəl söz ustası Şəmsi Vəfadar***
***Nə dayı istəyir, nə də havadar.***
***Həzin misraları dərman kimidir***
***Sözündə həm işıq, həm də şəfa var!***

Oqtay Rzanın bu kitabında şair Azərbaycan dilinə, bu dilin incəliklərinə özünəməxsus yanaşmaqla həm də onu sevdirməyə bir daxili yanğı ilə çalışır və paralel olaraq da bu gözəl dili qorumağı hər kəsdən tələb edir. Təbii ki, bu təbliğin, istəyin və tələbin arxasında onun son dərəcə səmimi şair ürəyi, şair yanğısı dayanır. Ona görə də Oqtay Rza az qala bütün səsiylə hər kəsə deyir:

- Azərbaycan türkcəsidi dilim mənim!

Kitabdan göründüyü kimi, Oqtay Rza şeirlərini, daha doğrusu şeirlərinin qəhrəmanlarını, yəni bu qəhrəmanlara olan böyük diqqətini, ehtiramını o qədər səmimiyyətə hopdurub ki, oxucu tanıdığı adamlar barəsində şair fikirləri ilə qarşılaşanda tərəddüd etmir. Əksinə, həmin o təqdimatla daxilən razılaşır. Hətta bəzən özü də o təqdimata qoşulur.

***Tükənməz sevgiyə, sayqıya layiq***
***Möhtəşəm Atatürk Mərkəzindəyik;***
***Bura yığıncaqlar, tədbirlər yeri,***
***Sorağı, şöhrəti gəzir hər yeri.***




***Gələn qonaqları qarşılayır kim?***
***Atatürk rəhbəri, Nizami Cəfər!***
***O həm müəllim, həm böyük alim,***
***Xalqa ərməğanı necə yüz əsər.***

Bu şeirdə şair hamımızın yaxşı tanıdığımız professor, millət vəkili Atatürk Mərkəzinin rəhbəri professor Nizami Cəfərovun misralarla portretini yaradıb və onu oxucuya öz prizmasından təqdim edibdi. ümumiyyətlə isə bu kitabdakı hər şeir ünvanlı olduğu kimi, həm də tam səmimiyyətlə toplusudu. Yəni həm adlıdı, həm də dadlıdı. Çünki xalqın sevdiyi söz adamı olan Oqtay Rza bu misraları xalqın sevdiyi insanlara ittihaf edibdi. Düşünürəm ki, mənim bu kiçik, amma ürəyimdən gələn qeydlərim "Dördüncü kitab"ı da oxuculara sevdirəcəkdi.

**Əbülfət Mədətoğlu**